**Binəqədi Rayon İcra Hakimiyyəti yanında Qəyyumluq və Himayəçilik komissiyanın 2018-ci ilin birinci rübü ərzində apardığı işlərin HESABATI**

**Hesabat dövründə Binəqədi RİH yanında Qəyyumluq və himayəçilik komissiyasının 30 iclası keçirilmiş və komissiyanın iclaslarında 55 məsələ müzakirə edilmişdir. Belə ki,**

Qəyyumluq və Himayəçilik komissiyasının icraatına məhkəmələrdən uşaqların tərbiyəsi barədə mübahisələrə baxılması ilə bağlı rəy verilməsi üçün **34** mülki iş daxil olmuşdur ki, bunlardan **31-i** üzrə rəy verilmiş, **3-ü** icraatdadır. *Daxil olmuş mülki işlər əsasında iclasda 31 məsələ müzakirə edilmiş və müvafiq rəylər qəbul edilərək məhkəmələrə göndərilmişdir.* (**17-i** uşaq tələbi, **11-i** uşaqla ünsiyyət, 2-**i** digər valideynin razılığı olmadan uşağın ölkə hüdudlarından kənara çıxarılması, **1-i** övladlığa götürmə) ilə bağlıdır.

Həmçinin Qəyyumluq və himayəçilik komissiyasının icraatına uşaqlar üzərində qəyyumluq və himayə təyin edilməsi ilə bağlı **1** müraciət (*bunlardan 1 məsələ iclasa çıxarılaraq müsbət həll edilmiş)*; nənə, baba və digər qohumların uşaqla ünsiyyət hüququnun həyata keçirilməsi ilə bağlı **2** müraciət (bunlardan 2-**i** məsələ iclasa çıxarılaraq müvafiq qərarlar qəbul edilmiş**);** yetkinlik yaşına çatmayanların mülkiyyət hüquqları olduğu əmlaka dair notariat qaydasında əqdlərin bağlanmasına razılıq verilməsi barədə **1** müraciət (komissiya iclasına çıxarılaraq müsbət həll edilmiş); müvafiq uşaq müəssisəsindən övladlığa uşaq götürməyi arzu edən şəxs qismində ilkin uçota alınması barədə **2** müraciət (komissiya iclasına çıxarılaraq müsbət həll edilmiş); yetkinlik yaşına çatmayanların ad və soyadının dəyişdirilməsi barədə **8** müraciət (komissiya iclasına çıxarılaraq **6-ı** müsbət həll edilmiş, **2-i** əsassız hesab edilmiş); valideyn himayəsindən məhrum olmuş uşaqların müvafiq uşaq müəssisəsinə yerləşdirilməsi barədə **1** müraciət (komissiya iclasına çıxarılaraq müsbət həll edilmiş); müvafiq uşaq müəssisəsindən uşağın ailəyə qaytarılması barədə **2** müraciət (komissiya iclasına çıxarılaraq müsbət həll edilmişdir); uşaqların digər hüquq və mənafelərinin qorunması ilə bağlı **7-i** müraciət (komissiya iclasına çıxarılaraq müvafiq qərarlar qəbul edilmiş) daxil olmuşdur.

Rayon İcra Hakimiyyəti başçısının təsdiq etdiyi Qəyyumluq və Himayəçilik Komissiyasının 2018-ci il üçün İş planının 1-ci bəndinə, həmçinin "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icra edilməsi haqqında Rayon İcra Hakimiyyəti başçısının 03.11.2014-cü il tarixli 215 saylı Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 4-cü bəndinə uyğun olaraq övladlığa götürülmüş, qəyyumluğa və ya himayəyə verilmiş uşaqların ailələrdə monitorinqi aparılmış, monitorinqin nəticələri rəsmiləşdirilmiş, qaldırılan problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Həmçinin Rayon İcra Hakimiyyəti başçısının təsdiq etdiyi Qəyyumluq və Himayəçilik Komissiyasının 2018-ci il üçün İş planının 2-ci bəndinə, həmçinin "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icra edilməsi haqqında Rayon İcra Hakimiyyəti başçısının 03.11.2014-cü il tarixli 215 saylı Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 2-ci bəndinə, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın "İctimai-siyasi, təbliğat işlərinin təşkili və ideoloji işin təkmilləşdirilməsi"nə həsr olunmuş iş planının 53-cü bəndinə uyğun olaraq Binəqədi rayon ərazisində yerləşən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin Sığınacağı və Azərbaycan Uşaqları İctimai Birliyi Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzi ilə əməkdaşlıq qurulmuşdur, sığınacaqda yaşayanlara hüquqi, psixoloji, mənəvi, tibbi, sosial, maddi yardımların göstərilməsi işində köməklik göstərilir. Həmin sığınacaqlarda insan alverinin, məişət zorakılığının qurbanı olan və ya potensial qurbanı olan baxımsız uşaqların effektiv reabilitasiyası və sosial reinteqrasiyası həyata keçirilir.

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin Sığınacağı Binəqədi rayonunun inzibati ərazisində 2016-cı il tarixdən öz fəaliyyətini davam etdirməkdədir. Binəqədi rayonunda fəaliyyət göstərdiyi müddət ərzində Sığınacaqda 288 uşaq məskunlaşmışdır. Onlardan 2 nəfəri "Asan-Peşə" vasitəsilə Bakı şəhəri 5 saylı Texniki Peşə məktəbinin dərzilik ixtisasına qəbul olunub, 22 uşaq ümumtəhsil məktəblərinə təhsilə bərpa edilib, 46 uşaq isə məktəbli forması ilə təmin edilib. Həmçinin 20 uşaq Bakı şəhərinin müxtəlif rayonları üzrə uşaq bağçasına, 3 uşaq Bakı şəhəri 1 saylı İnternat məktəbinə və 3 uşaq SOS Uşaq Kəndinə yerləşdirilib, 37 uşağa psixoloji

yardım göstərilib, dilənçiliyə cəlb edilən 5 uşaq xüsusi nəzarətə götürülüb. Sığınacaq vasitəsilə Respublikanın müxtəlif səhiyyə müəssisələrində 50 uşağın müalicəsi təmin olunub, yeni doğulmuş 1 uşaq isə anasının razılığı ilə 1 saylı Körpələr evinə yerləşdirilib. Valideyn himayəsindən məhrum olan 1 uşaq təşkilatın rəhbəri tərəfindən qəyyumluğa götürülüb.

Binəqədi rayonunun inzibati ərazisində fəaliyyət göstərən Azərbaycan Uşaqları İctimai Birliyinin nəzdində 24 saat ərzində Uşaq sığınacağı-Reinteqrasiya Mərkəzində insan alverinin, məişət zorakılığının qurbanı olan və ya potensial qurbanı olan baxımsız uşaqların effektiv reabilitasiyası və sosial reinteqrasiyası həyata keçirilir. Mərkəzdə küçədə yaşayan, kimsəsiz, baxımsız və s. bu qəbildən olan uşaqlara sosial, psixoloji hüquqi yardımın göstərilməsi, onların sığınacaqla, təhsillə, paltarla, qida ilə, asudə vaxtının təşkili ilə bağlı və s. zəruri xidmət və mallarla təmin edilmələri həyata keçirilir.

Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzinə 2015, 2016 və 2017-ci illər ərzində yerli icra hakimiyyətləri, daxili işlər orqanları və müvafiq dövlət qurumları tərəfindən Respublikanın bölgələrindən və Bakı şəhərindən 184 uşaq və 89 valideyn yerləşdirilmişdir. Həmin uşaqlardan 12 nəfəri Mərkəzin rəhbəri tərəfindən qəyyumluğa və himayəçiliyə götürülmüşdür. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən 28 uşağa himayə mandatı verilmişdir. Binəqədi rayonunun müxtəlif ümumtəhsil məktəblərində 13 uşaq təhsilə bərpa edilmiş və 9 uşaq fərdi təhsilə cəlb edilmişdir. Məktəbəqədər yaşda olan sığınacaq sakinləri üçün yaradılan "Çərpələng" məktəbəqədər təhsil kursunda musiqi, art-terapiya, məntiq, rəsm saatları təşkil olunur. Hazırlıq saatlarını "Çərpələng" məktəbəqədər təhsil kursunu könüllü müəllimləri tədris edir. Sığınacağın psixoloqu tərəfindən mütəmadi olaraq hər bir uşaq üçün (3 yaşdan yuxarı) fərdi plan əsasında reabilitasiya proqramı hazırlanır. Qrup terapiyası zamanı məntiqi təfəkkürün inkişafı üçün oyunlar hazırlanır. Uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi üçün uşaq tamaşalarına, uşaq əyləncə mərkəzlərinə, cizgi filmlərinin nümayiş olunduğu kinoklublara, parklara aparılır.

Komissiya xidməti fəaliyyətində uşaqların mənafelərinin üstünlüyü prinsipini rəhbər tutaraq hesabat dövrü ərzində qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş işləri yerinə yetirmiş, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla aparılan işlərə xüsusi diqqət yetirmişdir.

| Məhkəmələrdən rəy verilməsi üçün daxil olmuş mülki işlər | 2017-ci ilin I RÜBÜ | 2018-ci ilin I RÜBÜ |
|---|---|---|
| Uşaqla ünsiyyət | 7 | 10 |
| Uşaq tələbi | 18 | 20 |
| Digər valideynin razılığı olmadan uşağın ölkə hüdudlarından çıxarılması | 2 | 2 |
| Nəvə ilə ünsiyyət | | 1 |
| Valideynlik hüququndan məhrumetmə | | |
| Övladlığa götürmə | 3 | 1 |
| Övladlığa götürmənin ləğv edilməsi | | |
| **Cəmi** | **30** | **34** |






| Vətəndaş müraciətlərin təhlili | 2017-ci ilin I RÜBÜ | 2018-ci ilin I RÜBÜ |
|---|---|---|
| **Qəyyumluq** | 6 | 1 |
| **Uşaqla ünsiyyət** | | |
| **Nəvə ilə ünsiyyət** | 4 | 2 |
| **Uşaq tələbi** | | |
| **Nikah yaşının azaldılması** | | |
| **YYÇ-nin əmlaka dair hüquqlarının həyata keçirilməsi** | 2 | 1 |
| **Övladlığa götürmə növbə** | 2 | 2 |
| **Ad və soyad dəyişmə** | 3 | 8 |
| **İnternatdan qaytarma** | 1 | 2 |
| **İnternata yerləşdirmə** | | 1 |
| **Qəyyumluğun ləğvi** | | |
| **Məişət zorakılığı** | | |
| **Digər** | 7 | 9 |
| **Cəmi** | **25** | **26** |




